# *Casim Əl-Budeyvi:* "KƏŞ-yə üzv dövlətlər ilə Azərbaycanı birləşdirən bir çox ortaq dəyərlər mövcuddur"

Aprelin 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) Baş katibi Casim Əl-Budeyvi arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan ilə KƏŞ arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə münasibətlərin inkişaf perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov KƏŞ-nin Baş katibi vəzifəsinə təyinatı münasibətilə Casim Əl-Budeyvini təbrik edib, ona fəaliyyətində uğurlar arzu edib.

Azərbaycanın KƏŞ-yə üzv dövlətlərlə qarşılıqlı hörmət, dəstək və həmrəyliyə əsaslanan münasibətlərinin mövcudluğundan bəhs edən nazir Ceyhun Bayramov bu münasibətlərin KƏŞ çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığa təkan verdiyini qeyd edib. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə KƏŞ Baş Katibliyi arasında Məsləhətləşmələrin Mexanizmi haqqında Anlaşma Memorandumu"nun imzalanmasının Azərbaycan və KƏŞ arasında münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirən nazir Ceyhun Bayramov bu xüsusda sözügedən memorandumdan irəli gələn məsələlərin, habelə növbəti addımların müzakirəsi istiqamətində qarşılıqlı təmaslar və dialoqun əhəmiyyətini vurğulayıb.



İqtisadi sahədə birgə həyata keçirilən layihələrin perspektivləri, o cümlədən Azərbaycan və KƏŞ arasında keçirilən birgə biznes forumlarının nəticələrinə məmnunluqla istinad edən nazir Ceyhun Bayramov sərmayələr sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində mövcud potensialdan istifadənin zəruri olduğunu diqqətə çatdırıb.

Casim Əl-Budeyvi KƏŞ-yə üzv dövlətlər ilə Azərbaycanı birləşdirən bir çox ortaq dəyərlərin mövcudluğundan məmnunluqla bəhs edərək, bu xüsusda baş katibliyi dönəmində münasibətlərin daha da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Tərəflər qarşıdan gələn Ramazan bayramı münasibətilə bir-birilərinə qarşılıqlı səmimi təbriklərini çatdırıb, bu müqəddəs bayramın bütün islam dünyasına əmin-amanlıq gətirməsini arzu ediblər.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2023.- 19 aprel.- S.6.